Azərbaycan.- 2020.- 25 dekabr. S. 5.

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident!

TÜRKSOY təşkilatının baş katibliyi, Türkdilli Ölkələrin Mədəniyyət Nazirlərinin Daimi Şurası adından və şəxsən öz adımdan Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Sizin builki ad gününüz Azərbaycan və türk dünyası üçün önəmli tarixi hadisələrlə və nailiyyətlərlə əlamətdardır. İşğal altında olan torpaqlar Zati-alinizin müdrik siyasəti və hərbi rəhbərliyi nəticəsində şanlı Azərbaycan Ordusu tərəfindən azad edilərək Azərbaycan xalqının 30 illik Qarabağ həsrətinə son qoyuldu və əzəli Azərbaycan torpaqlarında sülh və rifahın bərqərar olması ilə tarixi ədalət bərpa edildi.

İnanıram ki, işğal dövründə dağıdılmış bütün tarixi və mədəni irsimiz qısa zaman ərzində bərpa ediləcək və Qarabağda keçiriləcək beynəlxalq mədəni tədbirlərin təşkil olunmasında TÜRKSOY da yaxından iştirak edəcəkdir.

Fürsətdən istifadə edərək TÜRKSOY-un fəaliyyətinə göstərdiyiniz diqqət və dəstəyə görə Sizə dərin təşəkkürümü bildirir, bu əlamətdar gündə Zati-alinizə möhkəm cansağlığı, uzun ömür, xoşbəxtlik və ali dövləti fəaliyyətinizdə yeni nailiyyətlər arzulayıram.

*Ən dərin hörmət və ehtiramla,*

**_Düsen KASEİNOV,_**
**_TÜRKSOY-un Baş katibi_**